# POEZİYA: İÇİNDƏN KAİNATIN SƏSİ GƏLƏN BALIQQULAĞI



*Lütviyyə Əsgərzadə*
*Filologiya elmləri doktoru*

**Yaşadığımız XXI əsri düşüncədə böyük dəyişikliklərin, inqilabların baş verdiyi bir dövr kimi xarakterizə etmək olar. Dəyişən dünyamızda qadınların cəmiyyət üçün nə qədər böyük işlər gördüyü, onların ailə, məişət, istehsalat, mədəni-sosial məsələlərdə və ya ictimai-siyasi fikrin mikroobyektiv münasibətlərində öz mövqelərini daha aydın şəkildə müəyyən etdikləri danılmazdır. Siyasi prosesləri və onların gündəlik həyatımıza təsirlərini qiymətləndirərkən qadınlar kişilərdən daha mötədildir. "Qadınlar sivilizasiyanın təşkilatçısı, kişilər isə onlara güc verənlərdir", - desək, yanlış olmaz. Qadınlar hər bir ölkənin insan resurslarının çox mühüm hissəsi, elm, texnologiya və yaradıcılıqda istedad xəzinəsidirlər. Yazımıza qadın, elm və yaradıcılıq sözləri ilə başlamamız təsadüfi deyil. Haqqında söhbət açmaq istədiyim qadın elmlə yaradıcılığı vəhdətə gətirən və hər ikisində də uğur qazanan filologiya üzrə fəlsəfə doktoru, AR Təhsil İnstitutunun aparıcı elmi işçisi, "Kitab Evi" İctimai Birliyinin sədri, AYB-nin üzvü, şairə Adilə Nəzərdir.**

Şərur rayonunun Şəhriyar kəndində, çoxuşaqlı ailədə dünyaya gəlib. Orta məktəb illərindən yaradıcılığa başlayan Adilə xanımın şeirləri müxtəlif dillərə: Türkiyə türkcəsinə, rus, fars, fransız və özbək dillərinə tərcümə olunub. Mütəmadi olaraq, dövrü mətbuatda, qəzet və dərgilərdə, saytlarda fəaliyyət göstərən şairə, yaradıcılıqla yanaşı, elmi fəaliyyətini davam etdirir. Azərbaycanda və bir sıra xarici ölkələrdə elmi konfranslarda, festivallarda və ədəbi toplantılarda iştirak edir. 13 kitabın: "Həsrəti öldürürəm", "Sabahım, sənmisən gələn", "Yuxuma yağış yağır", "Sevgi qum saatıdır", "Xəbərin oldumu", "Mən və sonrası", "Beşinci mövsüm", "Topla məni, İlahi", "Bir ovuc gün işığı" adlı şeirlər kitablarının, "Azərbaycan dilində fəlsəfə terminlərinin izahlı lüğəti", "Azərbaycan dilində fəlsəfə terminlərinin leksik-semantik xüsusiyyətləri", "İmadəddin Nəsimi yaradıcılığının tədqiqi və tədrisi məsələləri", "Aşıq Ələsgər yaradıcılığında sufizm" monoqrafiyalarının, həmçinin 100-dən çox elmi və publisistik məqalənin müəllifidir. Elm və mədəniyyət sahəsindəki xidmətlərinə görə, Mahmud Kaşğarlı Beynəlxalq Fondunun "San yarlığı" (2017) və Prezident mükafatına (2023) layiq görülüb. "Aşıq Ələsgər - 200" yubiley medalı ilə təltif olunub (2023).

Yazıda Adilə Nəzərin poeziyasından bəhs edəcəyik, lakin bu o qədər də asan məsələ deyil. Çünki şairənin poeziyası mövzu etibarı ilə çoxşaxəlidir. Şair var ki, yalnız təbiət şeirləri yazır, şair var ki, sevgidən. Hər ikisi də əbədi və gözəl mövzulardır, xüsusilə bu mövzular fəlsəfi düşüncə ilə yoğrulanda. Adilə xanımın poeziyasından yazmaq üçün öncə şeirlərini mövzu etibarı ilə təsnifləndirmək lazımdır. Çünki onun toxunmadığı mövzu yoxdur. Tanrı, aləm, kainat, insan, cəmiyyət, sevgi, təsəvvüf və s. Bunların hər biri ayrı-ayrılıqda bir məqalənin mövzusu ola bilər. Əvvəlcə başalyaq Adilə xanımın təsəvvüf şeirlərindən.

XXI əsrdə modern həyat yaşayan müasir bir xanım şairin "Hu", "Ya hu" müraciəti ilə yazdığı şeirlər düşündürücüdür. "Hu" ərəbcədə "O" anlamına, "O" isə Allah anlamına gəlir. "Hu" sufi ədəbiyyatında sıx-sıx Allaha müraciət etmək üçün istifadə olunur. "Hu" Ekankarda[1], Allaha oxunan sevgi mahnısının da adıdır. "Hü" dərviş salamıdır. Sufilərə görə, ən fəzilətli zikr Allahı heç bir şey istəmək mənasına gəlməyən bir ifadə ilə xatırlamaqdır. Bu səbəbdən də istək mənası olmayan və Allahın şəxsi adı olan "Hu" ən fəzilətli zikr hesab edilir.

Hu sözü Şumerlərdə və İbranilərdə "O" mənasında işlədilmişdir. Hədid surəsi: "Hüvəl əvvəlu vəl ahiru vəz zahiru vəl batin"... "Birincisi Hu / Sonuncu Hudur / Zahir Hudur / Batin Hudur".

Bu kainat bir mahiyyətdən yaranmışdır. O cövhər "Hu", yəni "O"dur - Allahdır. Zatdan üzə çıxan görünən kainat "Hu", yəni "O"dur. Yəni bu günün qarşılığı Allahdır. Bu kainatda görünən və görünməyən hər şey, yəni zahiri və batini cəhətləri ilə "HU"dur. İnsanın zatı, bütün varlığın cövhəri "Hu"dur.

"Ya Hu" sözü ilə inanclı insanların dilində tez-tez rastlaşırıq, "Ya Allah" şəklində. Adilə xanımda soz, müraciət dərvişanədir, "Ya Hu".

***Mədəd, Ya Hu, üşüyürəm,***
***Ətək ver, büküm canımı.***
***Yalqızlıq oda bürüyür,***
***Tənhalıq sökür canımı.***

Heçdən yaranan söz haqqında söz söyləmək çox çətindir. Hələ bu söz Allaha ünvanlanırsa... bu söz yaratdığının yaradanına pıçıltısıdırsa...

***Yaşılım saman olur hey,***
***Göy üzüm duman olur hey,***
***Hər sözüm aman olur hey,***
***Dağıdıb tökür canımı.***

Misralarda tez-tez təkrarlanan "hey" sözü diqqətimi çəkir. Hey sözü də çağırışdır, müraciətdir. "Hey" həm də bir şeyin tez-tez təkrarlandığını və ya çox davam etdiyini bildirən nidadır, haraydır. Bu çağrışda, bu harayda "lirik mən"in istədikləri göylərə ünvanlanır: "O" ndan cavab gözləyir:

***Cavabla, ya Rəb çağrımı,***
***Alışdır sönən bağrımı.***
***Kül etmə, Eşq tək ağrının***
***Yanğısı çəkir canımı.***

Onun istəyi bu dünya ilə deyil, "sevdiyi" ilədir.

***Bu dünya deyil eynimə,***
***Od, alov geydir əynimə.***
***Qurban verib Sevdiyimə***
***Eyləyim şükr, canımı.***

Hər yerdə "O"nu görən şairə yerlə göy arasındakı rabitəni qura bilir. "Sübh azanını Allahın salamı" olaraq qəbul edir. Çünki "Sübh azanı bir olan Allahı xatırladır".

***Hər ağac***
***kökünü qucaqlayan***
***torpaq kimidir əslində.***
***Salxım söyüd salxım-salxım***
***səcdəyə gedər -***
***bitsə də qarağac meşəsində...***

Şairənin məsələni namaz metaforası ilə izah etməyi irfanidir. Namaz möminin meracıdır[2]. Əllər səmaya uzanır, qəlblər "O"na Ərşə dönür. Hz. Musa soruşur: "Ey Rəbbim, mən Sənə necə çatım?" Onun Rəbbi: "Mən səcdə etmirəm. Mənim yaratdıqlarım səcdə halında yanıma gəlir". Yalnız insanlar deyil, təbiətdəki hər şey "O"nun həvəsində, ona səcdədə:

***Gur axan dağ çayları***
***səhraların şəhvətində yox olar...***
***Budur sirr, budur EŞQ -***
***hər şey Onun həvəsində...***

"Lirik mən" haradan gəlib haraya gedəcəyinin, ilkin və sonun mahiyyətindədir. Ruhunun kimə və ya haraya aid olduğunun, şeirlərinin haradan güc aldığının, sözün sahibinin, "Sübh azanının Allahın salamı" olduğunun fərqindədir. Və hər gün "Allahın salamı"nı bütün ruhuyla hiss edən, ruhunun sahibini bilən şairə "Əleykum Salam" deyir:

***Eheey, şair, unutma, sən***
***kimsənin kimsəsi deyilsən -***
***sənə ruh verəninsən...***
***Yol gedənin, gün yaşayanın,***
***şeir də Allahındır.***
***Sübh azanı Allahın salamıdır -***
***və Əleykum Salam!***

XXI əsrin, modern dünyanın, süni intellektin dünyamızı idarə etdiyi bir zamanın sakini olan Adilə xanımın yaradıcılığı təpədən-dırnağa ruhsal zəmində, mənəviyyat qatındadır. Müəllifin şeirləri, çağırış, dua kimi, şükür kimi səslənir. Şeirlərinin mayası təsəvvüfdür, qəlbin gizlinlərinə sığınmış sonsuz Eşqdir. Təsəvvüfdə "eşq" insan ruhunun Tanrıya qovuşub, onda əriməsi (vüsal) yox olması anlamına gəlir. Çünki "O"na gedən yol məhz eşqdən, eşqlə yanmaqdan keçir. Sevgiliyə qovuşmaq, onun eşqiylə yanmaqdan keçir. İbn Ərəbi yazır ki, "Sevən mənəm, sevdiyim də mən". Şairənin, sevənin "dəli-dəli" sevdiyi sevgilisi "HU"dur. Adilə xanımın "HU... dəli-dəli" şeiri bütövlükdə onun irfani və mənəvi duyğularının təqdimidir:

***Sevgilim, qulaq ver gələn fəğana,***
***Dinlə, gör nə deyir bu dəli-dəli.***
***Çəkim saçlarımı gözümdən yana-***
***Bax, necə çağırır, Hu... dəli-dəli.***



"Sevgilim", -deyə müraciət etdiyi "HU"dur. Ona o qədər yaxındır ki, sanki onunla danışır, ona "qulaq ver"məsi, səsini duyması üçün yalvarır. İstədiyi "HU"nun onu dinləməsidir, onu necə sevməsini, "O"nun eşqiylə yandığını, onun divanəsi olduğunu, "Hu dəli-dəli" çağırmasını duymasıdır:

***Sözün sözüm idi, andındı andım,***
***Əydin, əyilmədim, amma ki, sındım.***
***Mən odsuz-ocaqsız yandıqca yandım,***
***Çilə atəşimə su dəli-dəli...***

"Sözün sözüm, andın andımdı. Əydin, əyilmədim, amma qırıldım." "Lirik mən"də ona yazılan taleyə bir az qırğınlıq var. "Odsuz-ocaqsız yandıqca yanan" "lirik mən"in istəyi beytindəki "Çilə atəşimə su dəli-dəli..." - sözlərində öz əksini tapır. Burada "çilə" iki mənada işlənir. Birinci suyu səpələmək-çiləmək anlamındadır ki, müəllif yanan bağrına su çilənməsini təvəqqə edir. İkinci isə çilə çəkən aşiq... Təsəvvüfdəki "çəhl" konsepsiyası...

Çilə sufi dərvişlərin nəfslərini tərbiyə edib təsəvvüf yolunda irəlləmək üçün qırx gün qaranlıq bir hücrədə təkbaşına inzivaya çəkilib riyazət - dünyanın rahatlıq və ləzzətlərindən əl çəkməkdir. "Lirik mən" də bu dünyada "çilə çəkir" və ya "çiləsini çəkib". "O"nun eşqiylə odsuz-alovsuz yanan qulunun "atəşinə su" çilənməsini" istəyir, "lirik mən".

***Burada bir dəli qulun oynayır,***
***Axtarır tapammır yolun, oynayır.***
***Düşüb ortasına gölün oynayır***
***Sonuncu rəqsini qu dəli-dəli...***

Qul deyincə, bəndə, dəli deyincə İlahi eşqlə yanan bir divanə, yol deyincə özünədərkə qədəm qoyan insan gözümün önündə canlanır.

Müqəddəs kitabımızda bizlərə buyrulur: "Siz "Həzrəti insan"sınız. Özünüzü tanıyın. Hər şey Sizdə başlayır. Məxluqatın onurğa sütunu olduğunuzu unutmayın. İnsan həm yoldur, həm yolçu. Yolçu yolu tanımaq istəyirsə, özünü tanımalıdır". Yol yolu bilənin, özünü bilmək istəyənindir. Yolu bulmaq üçün yola çıxmalısan. "Lirik mən" yola qədəm qoyub. Yolu bulmaq üçün "gölün ortasına düşüb oynayır". "Yol", Göl" və rəqs. Bunlar yola qədəm qoyan insanı "HU"ya gedən yola götürən bələdçilərdir. Hələ dinlər yox ikən, var olan şamanlar uzu göylərə rəqs edərək Vəcd, yaxud Ekstaz halında "ruhun dünyəvi gerçəklikdən qurtulduğu halı" kimi başa düşülüb. Adamın şüuru və yaddaşı yerində olmaqla özünə (dünyəvi-fiziki varlığına, duyumlarına) bağlı heç bir qavrayışın olmadığı və adamın bütünlüklə özü xaricində bir nəsnə (şey) ya da varlıqla (xəyal, ruh, ilahi qüvvə və b.) əlaqə qurduğu nadir şüur hallarından biridir. Və ya şaman mərasimini xatırladan səmavi rəqs Vəcd halında "O"na yüksəlməkdir. "Düşüb ortasına gölün oynayan" "lirik mən"in - günahsız bir aşiqin, dəli-dəli rəqs edən qu quşunun istəyi də bu, "ruhun dünyəvi gerçəklikdən qurtulması", İlahi eşqlə bütünləşmək istəyi deyilmi?

İbni Ərəbi yazır ki, "Ruhani eşq sevəndə sevilənin, əslində bir olan idrakıdır. Yəni qayə sevilənin maddi varlığı və cismani ləzzətləri deyil, sevilənlə əsl sevgisinin birliyi idrakıdır ki, doğrudan-doğruya ilahi eşqlə bütünləşməyi saxlar".

***Bir ağrı, bir acı atıbdı çəngəl,***
***Gözümün önünü tutubdu çən, gəl.***
***Kim gəlmir gəlməsin, öləndə sən gəl,***
***Məni göz yaşınla yu, dəli-dəli...***

"Bu dünya bir yad evdir, mən də yadam içində". Adilə Nəzərin çağrışları, müraciətləri Allahadır. Könlü onun Eşqilə yanan Adilə Nəzər "O"na sığınıb. "O"nun aşiqi, "O"nun dəli-divanəsidir. Bu dünyada çox ağrı, açı çəksə də, dünyadan ayrılanda məşuqdan istədiyi var: "Kim gəlmir gəlməsin, öləndə sən gəl! Məni göz yaşınla yu, dəli-dəli". "Lirik mən" çəkdiyi ağrıdan, açıdan qurtulmaq istəmir, "O"na səslənir: "Sən gəl!" Ölüm "Hu"ya qovuşmaqdır. Yenidən doğulmaqdır. Məcnun da bu dünyadan cismən köçdüyü məqamda əcəlin müştaqıdır:

***Müştaqinəm ey əcəl, kərəm qıl,***
***Dəfi aləm ilə rəfi-ğəm qıl!***
***Qurtar məni iztirabi-ğəmdən!***
***Ver müjdə vücudimə ədəmdən!***

Bütövlükdə, Adilə Nəzərin poeziyası özünüdərkə qədəm qoymuş bir "qul"un, bir bəndənin "HU" ya səslənişidir. Dərin düşüncəli, irfani ruhlu şairənin virdidir. İbadəti, itaəti, dua və şükrüdür. Ölümü dərkidir.

***Ölüm günah yumaq üçün***
***Bir qab sudur, bir az torpaq.***
***Təkrar göyərəcək ömür,***
***Toxum, tumurcuq və yarpaq...***
***Getmərəm deməyin, əbəs,***
***Qaldımı bu günə bir kəs?!..***
***Doğum sözdür, ölümsə səs,***
***Şeir də bir ovuntudur...***

Şairənin "bir ovuntu" adlandırdığı şeirləri, nalələri yaradanı üçündür, "özünə qovuşmaq üçündür".

***Sarılmaram Səndən ayrı yarağa,***
***Şeir-şeir əriyirəm varağa,***
***Ölənədək salma Eşqdən irağa,***
***Toralsa gözlərim, - ovuşdur, Allah!***

***Məni şair edən Sevgi ətridir,***
***Başıma tutduğum həsrət çətridir,***
***Adiləyəm, naləm Yardan ötrüdür,***
***Məni öz yarıma qovuşdur, Allah!***

İnsan Adilə Nəzərin şeirlərini oxuduqca haldan-hala düşür. Dünya, aləm, kainat haqqında düşüncələrə dalır. Oktavia Pas poeziya haqqında yazır ki, "Poeziya bilgidir, ruhun qurtuluşudur, gücdür, özünü unutmadır. Poeziya ruhani məşqdir, daxili azadlığa aparan yoldur. Poeziya bu dünyanı mənalandırır, onu ucaldır; amma başqa bir dünya da yaradır. İlhamdır, nəfəsdir, səyahətə dəvətdir. Səhrada duadır, mövcud olmayanla ünsiyyətdir" (Oktavia Pas). Poeziya eyni zamanda, hissdir, həyəcandır, fəhmdir, virddir, oxucunun qəlbində əks-səda verən xəfif nəğmədir. "İçindən kainatın səsi gələn balıqqulağıdır, onun ritmləri, ölçüləri universal harmoniyanın əks-sədasıdır", səslənişdir, çağırışdır.

**Bütövlükdə şairənin yaradıcılığını bir yazıya sığdırmaq mümkün deyil. Növbəti yazımıza qədər...**

**Uğurlar olsun, Adilə xanım!**